

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 154 (21.055)

15 avqust 2014-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin yeni xidməti binası istifadəyə verilmişdir





Avqustun 14-də Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin yeni xidməti binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri, general-leytenant Şamı Abdullayev açılış mərasiminə gələn Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbova raport vermişdir.

Ali Məclisin Sədri şəxsi heyəti salamlamışdır.



Fövqəladə hallar naziri Şamı Abdullayev tədbirdə çıxış edərək demişdir ki, muxtar respublikada əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Son illər nazirliyin maddi-texniki bazası əhəmiyyətli dərəcədə gücləndirilmiş, zabit və gizirlərin xidmət və sosial-məişət şəraiti yaxşılaşdırılmışdır. Hazırda Naxçıvan şəhərində 48 mənzilli yaşayış binasının tikintisi aparılır. Bu il nazirliyin müvafiq qurumları tərəfindən 5 təhlükə potensiallı obyekt, 57 avadanlıq və qurğu sertifikatlaşdırılmış, 56 tikinti obyektində mühəndis-geoloji axtarış işləri aparılmışdır. Şamı Abdullayev yaradılan şəraitə və göstərilən qayğıya görə kollektiv adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin yeni xidməti binasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: "Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xətt bu gün ölkəmizdə uğurla davam etdirilir. Bunun da nəticəsində bütün sahələrdə inkişaf və tərəqqiyə nail olunmuşdur. Hər il ölkəmizdə yeni müəssisələr və istehsal sahələri yaradılır, iş yerləri açılır, əhalinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, müasir evlər tikilir. Tikilənlərin, qurulanların qorunub saxlanılmasında isə təhlükəsizlik tədbirlərinə əməl edilməsi vacib şərtdir. Bu işlər ölkəmizdə Fövqəladə Hallar Nazirliyi və onun yerli struktur qurumları tərəfindən həyata keçirilir".

Ali Məclisin Sədri demişdir: "Ölkəmizdə, eləcə də muxtar respublikamızda nazirliyin fəaliyyəti tam təmin olunmuş, struktur qurumları üçün müasir iş və xidmət şəraiti yaradılmışdır. Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin yeni xidməti binasının istifadəyə verilməsi də Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin davamıdır. Hazırda Sədərək rayonunda 5 minə yaxın təsərrüfat və sahibkarlıq subyekti mövcuddur. Şöbədə yaradılan şərait və texniki təminat yanğın təhlükəsizliyi tədbirlərinin vaxtında həyata keçirilməsinə imkan verəcəkdir".

Ümummilli liderimiz Heydər Əliyevin ***"Bir hadisənin qarşısını almaq o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır"***, – fikrini xatırladan Ali Məclisin Sədri demişdir: "Yaradılan şərait kollektiv qarşısında mühüm vəzifələr qoyur. Bu vəzifələr hadisələr baş verməmişdən onun qarşısını almaqdan, təsərrüfatları və sahibkarlıq subyektlərini daim nəzarətdə saxlamaqdan, mövsümə uyğun olaraq müvafiq tədbirlərin həyata keçirilməsindən ibarətdir. Ərazinin sərhəd bölgəsi olmağı nəzərə alınaraq əhalinin, dövlət müəssisələrinin və hərbi hissələrin fərdi mühafizə vasitələri ilə təminatı tam həyata keçirilmişdir. Müasir iş şəraiti qarşıya qoyulan vəzifələri vaxtında icra etməyə imkan verəcəkdir".

Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunacağına əminliyini bildirmiş, kollektivə xidmətlərində uğurlar arzulamış, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, şöbənin inzibati binası zirzəmidən və iki mərtəbədən ibarətdir. Zirzəmidə fərdi mühafizə vasitələri yerləşdirilmiş, ərazidə 75 kubmetr həcmində yeraltı ehtiyat su hovuzu, hündürlüyü 17 metr olan təlim qülləsi və 2 anbar tikilmişdir. Binanın birinci mərtəbəsində növbətçi yanğınsöndürmə xidmətinin fəaliyyətini təmin edən otaqlar və qaraj, eləcə də sinif otağı, yataqxana, yeməkxana, istirahət otağı, camaşırxana və qazanxana, ikinci mərtəbədə isə iş otaqları və müşavirə zalı vardır. Müşavirə zalı proyektor və kompüterlə təchiz olunmuş, sinif otağında şəxsi heyətin təlimatlandırılması üçün lazımi şərait yaradılmış, məlumat stendləri və kitabçalar qoyulmuşdur.

Rayonun yanğından mühafizə planı ilə tanışlıq zamanı Ali Məclisin Sədrinə məlumat verildi ki, Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsi üçün yaradılmış müasir şərait rayondakı təsərrüfat subyektlərində, fərdi təsərrüfatlarda, taxıl və yaşıllıq sahələrində yanğın təhlükəsinin qarşısının alınmasını təmin edəcəkdir. Şöbənin tabeliyində 3 yanğınsöndürən və 1 əməliyyat avtomobili, eləcə də 2 su pompası vardır. Şəxsi heyətin fərdi mühafizəsi də nəzərə alınmış, şöbəyə 80 dəst xüsusi yanğından mühafizə geyimi verilmişdir. Dispetçer otağında quraşdırılan radiorabitə sistemi fövqəladə hadisələr zamanı 25 kilometr məsafədə şəxsi heyətin hərəkət qrafikinin müəyyənləşdirilməsi və idarə olunmasına imkan verəcəkdir. Şöbənin əhatə etdiyi 1 qəsəbə və 3 kənddə yaşayan 15 mindən artıq əhalinin və onların əmlakının yanğından mühafizəsi məqsədilə mütəmadi olaraq profilaktik tədbirlər həyata keçirilir.

Sonra Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinə yeni "MAN" markalı yanğınsöndürən avtomobil verilmişdir.

Qeyd olunmuşdur ki, Almaniya istehsalı olan "MAN" markalı avtomobil yanğınsöndürmə və xilasetmə işlərini həyata keçirir. 9 nəfər heyətlə hərəkət edən avtomobil 2,3 ton su və 300 kiloqram köpükyaradan maye tutur. Yüksək texniki göstəricilərə malik olan avtomobil siyirtməli nərdivan və yanğından mühafizə vasitələri ilə təmin olunmuşdur.

Binanın həyətində də abadlıq işləri aparılmış, idman meydançası yaradılmışdır.



## Sərhəd yaşayış məntəqələrimizin müdafiə qabiliyyəti gücləndirilir

Naxçıvan Muxtar Respublikasının hərbi potensialının möhkəmləndirilməsi və müdafiəsinin etibarlı təşkili daim diqqət mərkəzində saxlanılır. Əlahiddə Ümumqoşun Ordusunun döyüş hazırlığının yüksəldilməsi, hərbi hissələrin maddi-texniki təminatı, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirməyə imkan verir. Görülən tədbirlərin nəticəsidir ki, bu gün muxtar respublikanın düşmənlə təmas xəttində yerləşən hərbi hissələrində etibarlı müdafiə sistemi yaradılmışdır.

Avqustun 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Sədərək rayonunda Ermənistanla sərhəddə yerləşən hərbi hissəyə gəlmiş, xidmətin təşkili və şəxsi heyətin sosial-məişət şəraiti ilə maraqlanmışdır.

Azərbaycan Respublikası müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordusunun komandanı, general-leytenant Kərəm Mustafayev Ali Məclisin Sədrinə raport vermişdir.

Ali Məclisin Sədri şəxsi heyəti salamlamış, xidməti vəzifələrini uğurla yerinə yetirdiklərinə görə onlara təşəkkürünü bildirərək demişdir: "Sədərək rayonu işğalçı Ermənistanla sərhəddə yerləşir. Lakin ölkəmizin digər sərhəd yaşayış məntəqələri kimi, Sədərək rayonu da bu gün inkişaf edir, abadlaşır, insanların rahat və təhlükəsiz yaşayışı üçün lazımi tədbirlər görülür. Bu tədbirlərin içərisində ən vacibi isə sərhədlərimizin müdafiəsini təmin etmək, burada xidmət keçən əsgər və zabitlərimizin məişət şəraitini yaxşılaşdırmaq, bölmələrin silah və sursat təminatını həyata keçirməkdən ibarətdir".

Ali Məclisin Sədri demişdir: "Əsgərlər arasındakı vətənpərvərlik və birlik hər bir ordunun gücünü təşkil edən başlıca amildir. Bu gün Azərbaycan Ordusunda olan birlik, vətənpərvərlik və yüksək döyüş əhval-ruhiyyəsi torpaqlarımızın etibarlı müdafiəsinə və toxunulmazlığına tam təminat verir. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin muxtar respublikamızda yerləşən ordu,

Ardı 2-ci səhifədə





bölmə və hissələri də torpaqlarımızın müdafiəsini təmin etməklə bərabər, həm də sərhədlərimizi etibarlı şəkildə qoruyurlar. Siz üzərinizə düşən vəzifələri layiqincə yerinə yetirməklə, xidmətinizi qarşılıqlı hörmət və birlik əsasında qurmaqla, ilk növbədə, ölkəmizin müdafiəsinin etibarlı təşkilinə və xalqımızın rahat yaşayışına xidmət edirsiniz. Unutmamalısınız ki, xidməti fəaliyyətinizi işğalçı ölkə ilə sərhəddə aparırsınız. Ona görə də döyüş hazırlığınız daim yüksəldilməli, təhlükəsizlik tədbirlərinə əməl edilməli, xidməti tapşırıqlar vaxtında icra olunmalıdır”.

Ali Məclisin Sədri şəxsi heyətin bundan sonra da öz xidməti fəaliyyətlərini uğurla yerinə yetirəcəklərinə əminliyini bildirmiş, onlara xidmətdə uğurlar arzulamışdır.

Əsgər Yunis Axundov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərhəd bölgələrində, düşmənlə üz-üzə mövqelərdə xidmət edən əsgərlərlə görüşünün şəxsi heyətdə böyük ruh yüksəkliyi yaratdığını, onların vətənpərvərlik hisslərini, mübarizlik əzmini daha da artırdığını qeyd etmiş, hər zaman düşmənə layiqincə cavab verməyə hazır olduqlarını bildirmişdir.

Sonra Ali Məclisin Sədri tabor mərkəzində



şəxsi heyətin xidməti-məişət şəraiti ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, döyüş hazırlığının vəziyyəti, müdafiə sistemi, onun hərtərəfli təminatı və təşkili yüksək səviyyədədir. Əsas komanda heyətinin fiziki və psixoloji cəhətdən hazırlıqlı, döyüş təcrübəsi toplamış zabitlərlə komplektləşdirilməsi istənilən hərbi vəzifəni uğurla icra etməyə imkan verir. İnzibati, tədris və digər xidməti otaqların da yerləşdiyi binanın dəhlizində döyüş fəaliyyətinin gücləndirilməsi ilə bağlı təlimatlar və məlumat stendləri asılmışdır. Burada xidmətin nümunəvi təşkili ilə yanaşı, əsgərlərin yüksək səviyyədə qidalanması və sağlamlıqlarının qorunması üçün də hər cür şərait vardır.

Tabor mərkəzi ilə tanışlıqdan sonra Ali Məclisin Sədri komanda-müşahidə məntəqəsində olmuşdur.

Bildirilmişdir ki, muxtar respublikanın düşmənlə təmas xəttində yerləşən strateji əhəmiyyətli zirvə və yüksəkliklərində etibarlı müdafiə sistemi formalaşdırılmışdır. Bu yüksəkliklərdə xidmət aparan əsgər və zabitlərimiz yüksək döyüş hazırlığına malikdirlər. Döyüş növbətçiliyini aparan şəxsi heyətin istifadəsində olan cihazlar ən çətin hava şəraitində belə, qarşı tərəfin mövqelərinin müşahidə edilməsinə imkan verir. Burada mühəndis-istehkam qurğuları və maneələr yaradılmış, müdafiə rayonunun qorunmasının təşkili sahəsində mühüm tədbirlər görülmüşdür. Müasir döyüş texnikaları, artilleriya qurğuları və atıcı silahlarla təchizat isə bölgənin etibarlı müdafiəsinə təminat verir.

Ali Məclisin Sədri xidmətin nümunəvi təşkili və döyüş qabiliyyətinin yüksəldilməsi ilə bağlı müvafiq tapşırıqlar vermişdir.

Gətirilmiş ərzaq, meyvə, şirniyyat və digər məhsullar mətbəxə təhvil verilmişdir.

## Sədərək rayonunda yeni ictimai-iaşə obyekti istifadəyə verilmişdir

Avqustun 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Sədərək kəndinə gəlmiş, burada inşa olunan yeni ictimai-iaşə obyekti ilə tanış olmuşdur.

Məlumat verilmişdir ki, muxtar respublikamızda sahibkarlığın inkişafına göstərilən dövlət qayğısı digər sahələrlə yanaşı, xidmət sektorunun inkişafına da hərtərəfli şərait yaratmışdır. Bu da insanların rahatlığının təmin olunması, onların istirahətinin və asudə vaxtlarının səmərəli təşkili baxımından mühüm əhəmiyyət daşıyır. Sədərək kəndində yaradılan yeni ictimai-iaşə obyekti də rayon sakinlərinin tələbatı nəzərə alınaraq inşa olunmuşdur.

İstifadəyə verilən şadlıq sarayı 350 yerlikdir. Burada toy mərasimlərinin keçirilməsi üçün lazımi şərait yaradılmış, binanın interyeri müasir dizayn əsasında qurulmuşdur. Həmçinin ərazidə 7 kabinə və kiçik mərasimlərin keçirilməsi üçün ziyafət zalı istifadəyə verilmiş, 15 nəfər işlə təmin olunmuşdur.

Binanın həyətində də abadlıq işləri aparılmış, gülkarlıqlar salınmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



## “Gəmiqaya Kərpic Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal olunan məhsullara tələbat artır

***Muxtar respublikamızda yerli xammaldan səmərəli istifadə etməklə daxili bazarın tələbatına uyğun keyfiyyətli məhsullar istehsal edən müxtəliftəyinatlı yeni istehsal müəssisələri yaradılır və ya mütərəqqi texnologiyalar tətbiq olunmaqla fəaliyyəti dayanmış müəssisələrin işi bərpa edilir. Tikinti materiallarına olan tələbatın ödənilməsi istiqamətində də mühüm işlər görülür, tikinti materialları istehsal edən müəssisələr fəaliyyətə başlayır. Təbii ki, bu da tikinti-quraşdırma işlərinin sürətlə aparılmasına rəvac verir.***

“Gəmiqaya Kərpic Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyəti də son illər Naxçıvan Muxtar Respublikasında həyata keçirilən geniş miqyaslı quruculuq tədbirləri nəticəsində yerli tikinti materiallarına olan tələbatın ödənilməsi zərurətindən yaradılmışdır.

Muxtar respublikamızda belə müəssisələrin yaradılmasının nəticəsidir ki, daxili bazar keyfiyyətli yerli tikinti materialları ilə təmin olunur. İldən-ilə genişlənən quruculuq tədbirləri kərpic zavodunun istehsal gücünün artırılması və qış mövsümündə də tam gücü ilə işləməsi zərurətini yaratmışdır. Bu məqsədlə yeni layihə hazırlanmış və ötən il layihənin icrasına başlanmışdır. Qurutma sexində Türkiyə istehsalı olan və kompüterlə idarə edilən müasir texnoloji avadanlıqlar quraşdırılmış, kərpiclə dolu diyircəkli arabaların avtomatik hərəkəti üçün dəmir relslər çəkilmiş, istiliklə təminat və nəmliyin aradan qaldırılması üçün xüsusi qurğular qurulmuşdur. Eni 12, uzunluğu 50 metr olan süni qurutma sexi 4 kameradan ibarətdir. Hər kameraya ilkin olaraq 13 min ədəd kərpic yığılır. İlk mərhələdə kərpicin nəmliyi götürülür, ikinci mərhələdə qurutma prosesi başlanır. Rejimə uyğun olaraq, hər 7-15 dəqiqədən bir qapılar avtomatik açılır, hər kameradan kərpic dolu araba xaric olmaqla digəri sexə daxil olur. Ümumilikdə, qurutma sexinin 8 saatlıq iş rejimində gündəlik istehsal gücü 20 min kərpicdir.

Kərpicbişirmə sexində yaranan istilik xüsusi borularla aspirator vasitəsilə sorulub süniqurutma sexinə ötürülür. Bununla həm istilik sisteminin dövriyyəsi təmin edilir, həm də enerji itkisinin qarşısı alınır. Zərurət yarandıqda isə qurutma sexində qurulmuş istilik avadanlığından da istifadə edilir. Qurutma sexinin istifadəyə verilməsi ilə zavodun mövsümdən asılılığı aradan qaldırılmış, müəssisənin fasiləsiz fəaliyyəti təmin edilmişdir. Müəssisənin bir-birini tamamlayan 3 istehsal sahəsində – kərpickəsmə, kərpicbişirmə və qurutma sexlərində istehsal prosesinin təkmilləşdirilməsi və daha müasir texnoloji avadanlıqların alınıb quraşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. Layihəyə uyğun olaraq, kəsmə sexində yeni müasir texnoloji avadanlıqlar quraşdırılmış, xammalın iki mərhələdə üyüdülməsi təmin edilmiş, kərpicbişirmə sexində əlavə sobalar tikilmişdir. Süniqurutma sexində isə Türkiyə istehsalı olan daha bir istilik avadanlığı quraşdırılmışdır. İstehsal olunan məhsulun təbii hava şəraitində qurudulması və saxlanılması üçün əlavə çardaqlar qurulmuş, rəflər hazırlanmış, zavod daxilində yük daşınması üçün yüksək manevr etmək imkanlarına malik müasir texnikalar alınmışdır.

Zavodun istehsal gücünün artırılması çoxalan tələbatın ödənilməsinə və daxili bazarın keyfiyyətli yerli tikinti materialları ilə təmin edilməsinə əlverişli şərait yaratmaqla bərabər, əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayır. Hazırda müəssisədə 151 nəfər işçi çalışır ki, onlar da yüksək əməkhaqqı, xüsusi geyim formaları və servis xidməti ilə təmin olunmuşlar. Kollektiv cari ili uğurlu göstəricilərlə başa vurmaq üçün mövcud imkanlardan səmərəli istifadə etməyə səy göstərir.

Zavod fəaliyyətə başlayan zaman gün ərzində 25 min ədəd kərpic istehsal olunurdusa, yeni layihənin həyata keçirilməsindən sonra gün ərzində 45-50 min ədəd kərpic istehsal etmək imkanı yaranmışdır.

Türkiyədən alınmış müasir texnoloji avadanlıqlar məhsulun keyfiyyətli istehsal olunmasında mühüm rol oynayır. Zavod xammalın yerləşdiyi ərazidə inşa olunduğundan əlavə daşınma xərci çəkilmir, boşdayanma hallarına yol verilmir. Burada müasir texnoloji avadanlıqlarla təchiz edilmiş 3 istehsal sahəsi – kərpickəsmə, kərpicbişirmə və qurutma sexləri fəaliyyət göstərir. İstehsal prosesi konveyer üsulu ilə həyata keçirilir, texnoloji proseslərə və məhsulun keyfiyyətinə ciddi əməl olunur.

*Zavodda istehsal edilən səsboğucu, radiasiyasız, yayda sərin, qışda isə isti saxlayan keyfiyyətli tikinti materialı kimi kərpicə tələbat ildən-ilə artır. Bu da, təbii ki, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının və əhalinin maddi rifahının daha da yaxşılaşmasının göstəricisidir.*

**Kərəm HƏSƏNOV**

Ziyarətgahlarımız

# Əlincəçay xanəgahı

***Culfa şəhərindən 37 kilometr şimalda, Əlincəçayın sahilində, məşhur Əlincəqalanın şərq tərəfində qərar tutan Xanəgah kəndi maddi-mədəniyyət nümunələri ilə çox zəngindir. Adını orta əsrlər zamanı Naxçıvan bölgəsində fəaliyyət göstərən və sufi məskəni kimi tanınan xanəgahdan götürərək, bu səbəbdən qaynaqlarda "Xanəgah" kimi xatırlanan bu kəndin ərazisində orta əsrlər dövrünə aid bir neçə qəbiristanlıq, memarlıq abidələri, çoxlu epiqrafik sənədlər – müsəlman kitabələri vardır. Bu abidələr arasında Əlincəçayın sol sahilində, kənddən, təxminən, 1 kilometr aralı, şimal-şərq tərəfdə yerləşən Xanəgah kompleksi xüsusi yer tutur.***



Mühüm ticarət yollarının keçdiyi Culfa ərazisində, Əlincəçay sahilində inşa edilən xanəgah uzun müddət fəaliyyət göstərmişdir. Orta əsrlər dövründə əhalinin müxtəlif təbəqələri arasında böyük təsirə malik olan bu xanəgah Naxçıvandakı digər xanəgahlar kimi böyük şöhrət qazanmış, Şərq ölkələrində mövcud olan iri xanəgahlarla bir sırada durmuşdur. Azərbaycanda sufizm bayrağı altında xarici işğalçılara qarşı baş vermiş xalq hərəkatlarının tarixinə nəzər saldıqda aydın olur ki, bu xanəgah xarici müdaxiləçilərə, o cümlədən monqol işğalçıları və Teymurilərə qarşı mübarizələrdə mühüm rol oynamışdır.

Hazırda yerli əhali tərəfindən hörmətlə ziyarət edilən Xanəgah kompleksi son yüzillikdə baxımsız qaldığından bir sıra binalar məhv olmuş, bəzi tikililər yarımuçuq vəziyyətə düşmüşdür. Aparılan bərpa işləri isə keyfiyyətsiz yerinə yetirildiyindən xanəgah son illərdə yenidən əsaslı şəkildə bərpa edilmişdir. Kompleksdən zəmanəmizədək ancaq türbə, məscid və bəzi tikililərin qalıqları gəlib çatmışdır. Burada vaxtı ilə çoxlu kitabələr olmuş, ancaq zaman keçdikcə onların müəyyən hissəsi məhv olmuş, bu günədək bir neçəsi gəlib çatmışdır.

Burada qeydə alınan ən qədim kitabə kompleksin əsasını təşkil edən türbənin cənub tərəfdən olan giriş qapısının baş tərəflərində qoyulan kitabədir. Səkkiz sətirdə nəsx xətti ilə ərəb dilində həkk edilən kitabənin mətninin tərcüməsi belədir: *"Bu müqəddəs, mübarək türbənin tikilməsinə öz xüsusi malı hesabına əmir, isfəhsalar (baş komandan), hörmətli, qüdrətli, böyük alim, adil, dinin və dövlətin xoşbəxtliyi, İslam və müsəlmanların gözəlliyi, hökmdarların və sultanların qılıncı, hər iki müqəddəs yerin (Məkkə və Mədinə şəhərləri) şöhrəti, Həccə gedən zəvvarın və iki müqəddəs, mübarək məkanın dayağı Uluğ Qutluğ Lələ bəy – Allah onun kölgəsini əsirgəməsin – əmr etdi. Bu imarətin memarı hörmətli və alicənab Xacə Cəmaləddindir..."*

Kitabənin axırıncı sətri tamamilə ovulub töküldüyü üçün, tarixlər isə, adətən, mətnin sonunda yazıldığından onun tarixini dəqiq müəyyən etmək mümkün deyildir. Bəzi tədqiqatçılar türbəni memarlıq üslubuna – konstruktiv formasına əsasən, XII-XIII əsrlərə aid edirlər. Kitabədə türbəni tikdirən şəxsin adına əlavə edilən titullar göstərir ki, o, yüksək vəzifə sahibi (baş komandan) və böyük alim olmuşdur. Lakin türbənin kimin şərəfinə inşa edildiyi kitabədə qeyd olunmamışdır. Bu cəhət elm aləminə qaranlıq olduğu kimi, onun haqqında konkret fikir yürütmək də mümkün deyildir.

Türbənin içərisində, cənub divarında, giriş qapısının sağ və sol tərəflərində 2 ədəd mehrab vardır. Sütun, tağ, həşiyə və sair memarlıq ünsürləri ilə zəngin olan mehrabların üstü "Quran" ayələri, dini xarakterli kəlamlar və ornamentlərlə gözəl bəzədilmişdir. Türbənin içərisində bir qəbir vardır. Üstündə mənsubiyyətini bildirən kitabə olmadığı üçün qəbir haqqında sanballı elmi fikir söyləmək mümkün deyildir. Qəbirdə kimin dəfn edilməsi haqda alimizdə dəyərli elmi-tarixi fakt olmasa da, yerli əhali arasında belə bir fikir vardır ki, həmin qəbirdə XIV əsrdən etibarən Azərbaycanda geniş yayılmış hürufilik təliminin banisi Fəzlullah Nəimi dəfn edilmişdir.

Bir sıra orta əsr müəllifləri və müasir tədqiqatçılar F.Nəiminin 1394-cü ildə Teymurun oğlu Miranşah tərəfindən Naxçıvanda və ya Əlincədə qətlə yetirilməsini birmənalı şəkildə təsdiq edirlər.

Xanəgah yerli əhali arasında, sadəcə olaraq, "Şıx" və ya bütövlükdə, "Şeyx Xorasan" adlanır. Abidəni 1930-cu ildə tədqiq edən M.Mirheydərzadə isə onun adını "Şeyx Mələk Xorasanı" kimi qeyd edir. Bəzi tədqiqatçılar bu sözün, əslində, "Şeyx Xurasa" ("Günəşə oxşar", "nurani Şeyx") olduğunu və F.Nəiminin ləqəblərindən biri olduğu fikrini irəli sürürlər .

Fikrimizcə, "Şeyx Xorasan" sözünü F.Nəiminin anadan olduğu və təhsil aldığı yerin adı ilə də izah etmək olar. Orta əsr qaynaqlarında F.Nəiminin Təbriz, Şiraz, Astrabad və Məşhəddə doğulması haqqında fikirlər vardır. Görünür, F.Nəimi hələ erkən vaxtlardan sufizmin mərkəzinə çevrilmiş Xorasan vilayətinin Məşhəd şəhərində anadan olmuş və ya orada təhsil alaraq kamilləşmiş, sufizm ideyalarını mənimsəmiş və öz ideyalarını yaymaq üçün Azərbaycana gəlmişdir. Teymurilər tərəfindən təqib olunduğundan Naxçıvanda Miranşah tərəfindən tutularaq Əlincədə edam edilmişdir. Tərəfdarları isə onun cənazəsini Əlincəqalanın yaxınlığında dəfn edərək qəbrini ziyarətgaha çevirmişlər. Yerli əhali isə qəbri onun gəldiyi yerin adı ilə "Xorasanlı Şeyxin qəbri", "Xorasandan gəlmiş Şeyxin qəbri" kimi tanımışdır. Sonralar isə bu ad dəyişilərək "Şeyx Xorasan" şəklinə düşmüşdür.

Məşhur alim, AMEA-nın müxbir üzvü Məşədixanım Nemətin 2001-ci ildə nəşr etdirdiyi "Корпус эпиграфических памятников Азербайджана" kitabının III cildində üç ədəd mərmər kitabə parçaları haqqında məlumata rast gəlirik. Alim yazır ki, bu kitabə parçaları vaxtilə filologiya elmləri namizədi Ə.Hüseyni tərəfindən Əlincəqala ətrafında qeydə alınmışdır. Mərhum Ə.Hüseyni bu kitabə parçalarının hürufilik təliminin banisi F.Nəimiyə məxsus başdaşının parçaları olması fikrində olmuşdur. Sonralar Bakı Şəhər Tarix-Memarlıq Abidələrinin Bərpası və Mühafizəsi İdarəsinin əməkdaşları bu kitabə parçalarının fotosunu tarix elmləri doktoru M.Nemətə təqdim etmiş, o isə həmin kitabələri oxuyaraq nəşr etdirmişdir. Kitabə bütöv olmadığı və bir hissəsi itdiyi üçün onun mətnini tam oxumaq mümkün olmamışdır. Süls xətti ilə ərəb dilində həkk edilmiş kitabənin mətni belədir: *"Hər kəs ölümü dadacaqdır! ("Qurani-Kərim" XXIX – 57). Bu bağça mərhum, günahları bağışlanmış, kamil və fəzilət sahibi alim, təriqət yolu ilə gedənlərə ("salik əl-məsalik") doğru, aşkar yol göstərən, dinin Günəşi (Şəms əd-Din), padşah... – Allah onun qəbrini nurlandırsın – çərşənbə axşamı günündə öldü..."*

Kitabənin tarixi qalmamışdır. Mətndə mərhumun adına əlavə edilən və sufi təriqəti başçılarına, xanəgah rəhbərlərinə verilən "Şeyx" titulu, həmçinin kitabədə qeyd olunan "təriqət yolu ilə gedənlərə (salik əl-məsalik) doğru, aşkar yol göstərən" sözləri mərhumun görkəmli sufi şeyxi olduğunu söyləməyə əsas verir. Heç də hər bir təriqət başçısının bu mərtəbəyə yüksələ bilmədiyini, eyni zamanda qaynaqların da təsdiq etdiyi kimi, F.Nəiminin çoxlu ardıcılı – müridi olduğunu nəzərə alsaq, başdaşının mərhum Ə.Hüseyninin F.Nəimiyə aid olması fikrindən yayınmaq olmur.

Xanəgah kompleksinə daxil olan türbə-məscidin mehrabının baş tərəfində irihəcmli daşa həkk edilmiş kitabə vardır. Ərəb dilində iki sətirdə incə və gözəl xətlə həkk edilmiş kitabənin mətni belədir: *"Bu məqbərə mükəmməl, kamil, fəzilət sahibi alim, şeyx, hacıların və hər iki müqəddəs yerin (Məkkə və Mədinə) iftixarı, xalqlar içərisindəki tayfaların mürşidi, Allahı tanıyanların şeyxi Hacı Lələ Məlikindir. Tikinti kəramətli, əzəmətli xatun Xond Bikə xatunun – onun isməti artıq olsun – səyi ilə doqquz yüz birinci ildə tamam oldu".*

Qaynaqlar təsdiq edirlər ki, orta əsrlər zamanı Naxçıvan bölgəsində fəaliyyət göstərən sufi təriqətlərinə rəhbərlik edən adamlar içərisində sufilikdə ən yüksək məqama çatmış şəxsiyyətlər də olmuşdur. Belə şəxsiyyətlərdən biri kitabədə adı xatırlanan Şeyx Hacı Lələ Məlikdir. Kitabədə adına əlavə edilən titullar təsdiq edirlər ki, Şeyx Hacı Lələ Məlik sufilikdə ən yüksək məqama yüksəlmiş, bir müddət Əlincəçay sahilindəki xanəgahda fəaliyyət göstərən dərvişlərin rəhbəri – şeyxi olmuş, onlar vasitəsilə mənsub olduğu təriqətin ideyalarını yaymışdır.

Təriqət başçıları, xanəgah rəhbərləri olan şeyxlər ailə üzvləri ilə birlikdə Xanəgah komplekslərinə daxil olan xüsusi yerlərdə yaşamışlar. Bu faktı əsas götürərək ehtimal etmək olar ki, ölümündən sonra onun xatirəsinə belə möhtəşəm bir türbə – məscid inşa etdirən Xond Bikə xatın Şeyx Hacı Lələ Məlikin arvadı olmuş və onunla birlikdə xanəgahda yaşamışdır.

Keçən yüzilliyin 70-ci illərinin əvvəllərində xanəgahda bərpa işləri aparılarkən kompleksin şərq divarının yanından, torpağın altından dörd ədəd sənduqətipli qəbirüstü xatirə abidəsi aşkar edilmişdir. Bu abidələrin üzərində həkk edilmiş kitabələrin sayəsində xanəgahda yaşamış və fəaliyyət göstərmiş bir neçə sufi şeyxinin, onların ailə üzvlərinin adları aşkar olunaraq elmi dövriyyəyə daxil edilmiş, qeyd olunan ölüm tarixləri əsasında yaşadıqları dövr müəyyənləşdirilmişdir.

Xanəgahın ətrafında abadlıq işləri aparılarkən aşkar edilən digər üç sənduqətipli qəbirüstü xatirə abidəsi Naxçıvan Dövlət Tarix Muzeyinə gətirilmiş və orada mühafizə edilir.

Xanəgahın divarlarında qalan və ətrafda vaxtilə dəfn olunmuş təriqət mənsublarının qəbirləri üzərində qoyulan xatirə abidələrinin üstündə həkk edilən məzar kitabələri burada sufi təriqətinin fəaliyyət göstərdiyini birmənalı şəkildə təsdiq edirlər.

Xanəgahda bərpa işləri aparılarkən torpağın altından bir ədəd inşaat kitabəsi aşkar olunmuşdur. Ağ mərmər lövhə (50 x 37 x 12 sm) üzərinə üç sətirdə nəsx elementli gözəl süls xətti ilə ərəb dilində həkk edilmiş kitabə, əsasən, salamat vəziyyətdə qalmışdır.

Xanəgah kəndinin qərb tərəfində, Əlincəqalanın ətəyində son illərdə gözəl bir türbə aşkar edilmişdir. Türbənin içərisində irihəcmli daşa (83x41x7 sm) dörd sətirdə süls elementli nəsx xətti ilə ərəb dilində həkk edilmiş kitabə saxlanılır.

Göründüyü kimi, Culfa bölgəsinin mərkəzində yerləşən və orta əsrlər zamanı yaradılmış tarix-mədəniyyət abidələri ilə çox zəngin olan Xanəgah kəndi həm də Naxçıvanda sufi ideyalarının çox geniş yayıldığı yaşayış məskənlərindən olmuşdur. Xanəgah kompleksində fəaliyyət göstərən təriqət mənsubları dərvişlər Naxçıvan bölgəsinin sosial-siyasi və ideoloji həyatında mühüm rol oynamış, xalq kütləri ilə sıx təmasda olmuşlar. Onlar xüsusilə XIV yüzilliyin sonlarında ərazidə Teymurilərə qarşı baş verən narazılıqlara rəhbərlik etmiş, bu mübarizənin ön sırasında dayanmışlar.

***Sonrakı yüzilliklərdə də bu xanəgah öz fəaliyyətini davam etdirmiş, Səfəvi dövləti hökmdarlarına xidmət göstərərək onların ideyalarının yayılmasında mühüm rol oynamışdır. Əldə olunan epiqrafik faktlar bu xanəgahın XVIII əsrdə də fəaliyyət göstərdiyini tam qətiyyətlə söyləməyə əsas verir.***

**Fəxrəddin SƏFƏRLİ**
*AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü*

## Orta ixtisas təhsili müəssisələrində yeni kredit sisteminin tətbiqi milli təhsilimizin inkişafında mühüm rol oynayacaq



Dünən Naxçıvan Dövlət Texniki Kollecində Boloniya təhsil sisteminə uyğun orta ixtisas təhsili müəssisələrində kredit sisteminə keçidlə əlaqədar seminar keçirilib. Seminarı Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini Məhəmməd Qəribov açıb. Bildirilib ki, son dövrlərdə ölkəmizdə, eləcə də muxtar respublikamızda təhsilə göstərilən dövlət qayğısı nəticəsində təhsildə dünya standartlarına uyğun yeni metod və qaydaların tətbiqi uğurla icra olunur. Bu metodlardan biri də Boloniya təhsil sisteminə uyğun ali və orta ixtisas təhsili müəssisələrində yeni kredit sisteminin tətbiq olunmasıdır. Qeyd olunub ki, muxtar respublikada təhsil müəssisələrinin hərtərəfli inkişafı bu yeni metodların da tətbiqində mühüm rol oynayacaq.

Naxçıvan Dövlət Universitetinin tədris işləri üzrə prorektoru, dosent Surə Seyid çıxış edərək bildirib ki, yeni qaydalar "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 aprel 2010-cu il tarixli qərarı ilə təsdiq edilmiş "Orta ixtisas təhsilinin standartı və proqramı"na, 2011-ci il 14 yanvar tarixli qərarı ilə təsdiq edilmiş "Orta ixtisas təhsili müəssisələrinin Nümunəvi Nizamnaməsi"nə və Avropa kredit-transfer sisteminə uyğun olaraq hazırlanıb. Vurğulanıb ki, kredit sistemi əsasında təşkil olunmuş tədris prosesi hər bir tələbənin fərdi tədris planının olmasını və onların bu planın tərtibində iştirakını, tələbənin fənn və müəllim seçimində müstəqilliyini, təhsil prosesinə akademik məsləhətçilərin cəlb olunmasını, tələbəyə sərbəst iş üçün şəraitin yaradılmasını, biliyin qiymətləndirilməsində çoxballı sistemin tətbiqini, hər semestrdə tədris qruplarının fənlər üzrə formalaşmasını, hər bir fənn üzrə ayrıca jurnalın tərtibini, tələbə və müəllimlərin mobilliyinin təmin olunmasını və nəhayət, fakültələrin, kafedraların, ixtisasların, fənlərin, müəllimlərin, tələbələrin kodlaşdırılmasını nəzərdə tutur.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin xətti ilə keçirilən seminara videobağlantı ilə Naxçıvan Musiqi Kollecinin müəllimləri də qoşulublar.

Səbuhi HƏSƏNOV

## Muxtar respublikada sığorta fəaliyyəti genişlənir

Muxtar respublikada gedən sürətli sosial-iqtisadi inkişafın nəticələri özünü sığorta sahəsində də göstərməkdədir. Vətəndaşlar baş verə biləcək qəfil hadisələrdən sığortalanmaqla daşınmaz əmlaklarına, avtomobillərinə dəymiş zərərlərin ödənməsini, üçüncü şəxslərə vura biləcəkləri zərərə görə mülki məsuliyyətlərini zəmanət altına almış olurlar. Muxtar respublikamızda sığorta fəaliyyətinin müasir tələblərə uyğun şəkildə təkmilləşdirilməsi istiqamətində 30 noyabr 2011-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə" keçirilən müşavirənin xüsusi əhəmiyyəti olub və vətəndaşların sığorta xidmətləri ilə tam təmin olunması istiqamətində səmərəli işlər görülməkdədir. Belə ki, muxtar respublikanın rayonlarında, kənd mərkəzlərində, səhiyyə, mədəniyyət, təhsil ocaqlarında, sahibkarlıq obyektlərində aparılan görüşlər, keçirilən maarifləndirici tədbirlər artıq öz bəhrəsini verməkdədir.

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyindən aldığımız məlumata görə, ötən ilin ilk yeddi ayı ilə müqayisədə cari ilin müvafiq dövründə sığorta tədiyyələrinin toplanması və müqavilələrin bağlanmasında 8,7 faiz artım müşahidə olunub. Nəqliyyat, daşınmaz əmlak sığortası, insanların sağlamlığına dəymiş zərərlər və digər sığorta növləri üzrə ödənilən sığorta məbləğləri isə 22,1 faiz artıb. Bu hal vətəndaşlar üçün sığortanın nə qədər əhəmiyyətli olduğunu bir daha göstərməkdədir.

Əli CABBAROV

*Gəncliyimiz, gələcəyimiz*

## Çəkilən zəhmət hədər getmir



Faiq Həşimlinin tərcümeyihalı, təhsildə qazandığı uğurlar, imtahanda əldə etdiyi nəticələr qarşımdadır. O, 1997-ci ildə Culfa rayonunun Yaycı kəndində anadan olub. Bu il Yaycı kənd 1 nömrəli tam orta məktəbini bitirib. Sınaq imtahanlarında, fənn olimpiadalarında uğurlu nəticələr əldə edib. Ən böyük arzusu iqtisadçı olmaq olub. Bu arzusuna çatmaq üçün gecəsini gündüzünə qatan Faiq II ixtisas qrupu üzrə qəbul imtahanı verərək 674 bal toplayıb. Ali təhsil almaq üçün "ADA" Universitetinin "biznesin idarə edilməsi" ixtisasını seçib.

Faiq qəbul olunduğu ali təhsil ocağında qeydiyyatdan keçmək üçün Bakı şəhərinə gedib. Onunla telefon əlaqəsi saxladıq, təəssüratlarını öyrəndik:

– Son sınaq imtahanlarında, adətən, 600-dən yuxarı bal toplayırdım. Amma qarşıma məqsəd qoymuşdum ki, qəbul imtahanında bundan yüksək bal toplayım. Valideynlərim, müəllimlərim – hamı mənə inanırdı. Sevinirəm ki, bu inamı doğrulda bildim. Uğur qazanmağımın başlıca səbəblərindən biri muxtar respublikada təhsilə göstərilən qayğıdır. Hər ay sınaq imtahanlarında iştirak edirdim. Qəbul imtahanında heç həyəcanlanmadım; sanki yenə sınaq imtahanı idi. Qəbul imtahanından belə yüksək nəticə əldə edəcəyimi bilirdim. İmtahanın gedişi də göstərdi ki, özünəinamım əbəs deyilmiş. Qardaşım da yüksək bal toplayaraq Azərbaycan Tibb Universitetinə qəbul olunub və hazırda oranın tələbəsidir. Mən də bir daha bu sevinci valideynlərimə yaşatdım.

Faiq Həşimli onu da əlavə edir:

– Ən sevincli günlərimdən biri isə avqustun 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüşü oldu. Ali Məclis Sədrinin tələbə-gənclərin hərtərəfli inkişafına göstərdiyi qayğıkeş münasibətini həmin tədbirdə bir daha gördük. Biz bundan sonra da yaxşı oxumaqla göstərilən etimadı doğruldacağımıza söz verdik.

Azərbaycanın gələcəyi yüksək savada, intellektə və dünyagörüşünə malik vətənpərvər gənclərin əlindədir. İnanırıq ki, Faiq, özünün də dediyi kimi, gələcəkdə bacarıqlı mütəxəssis olmaqla, dövlətinə layiqli xidmət edəcək.

Bu yolda ona uğurlar arzulayırıq!

✍ **Sara ƏZİMOVA**

***Bu gün qadınlarımızın böyük əksəriyyəti ailə büdcəsinə kömək etmək, həyat standartlarını yüksəltmək, yaxud peşə sevgisi, cəmiyyətdə mövqe tutmaq kimi bir sıra səbəblərdən işləməyə üstünlük verir. Uzun müddət işləmək istəyən qadınlarımızı uğurlu karyera qurmaq maraqlandırır. Xanımlarımızı ən çox düşündürən sual isə budur ki, ailəyə və karyeraya bərabər zaman ayırmaq mümkündürmü?***

## Ailə və karyera: gənclər üçün gələcəyə istiqamətlənmiş iki yol ayırıcı

Bu yazımızda qadınların seçim qarşısında qaldıqları məsələlərdən biri olan ailə və karyera mövzusundan bəhs etməyə çalışacağıq. Bir vaxtlar çalışan kişilərin sayı qadınlara nisbətən daha çox idi və onlar karyeraya üstünlük verirdilərsə, hazırda dünyada, o cümlədən ölkəmizdə çalışan qadınların sayı getdikcə artmaqda, karyera tendensiyası kişilərlə qadınlar arasında bərabərlik təşkil etməkdədir. Kişilərin bir çoxu belə düşünür ki, yalnız onlar karyera sahibi ola bilərlər. Eyni zamanda qadınların karyera sahibi olmalarını onlardan daha üstün bir mövqedə olmaları kimi səciyyələndirirlər. Bu gün əksər qadınlarımız öz karyeralarını qurmaqla həm də ailələrinə iqtisadi cəhətdən kömək etmiş olurlar.

Bütün işləyən qadınların bir ortaq problemi var: evləri ilə iş yerləri arasında seçim etmək. İlk olaraq vəziyyəti idarə edə biləcəklərini düşünən qadınlar daha sonra bu gərginlikdən yorulur, eyni zamanda ailədən kənarda qaldıqları üçün özlərini günahkar hiss edirlər. Bəzən qadınlar bunun üçün evdə köməkçidən istifadə etsələr də, köməkçilər qadının istədiyi şəraiti yarada bilmirlər və bu, işləri daha da çətinləşdirir. Başqa sözlə, ailə və karyera seçimində əsas çətinlik qadınların üzərinə düşür.

Qeyd edək ki, əvvəllər xanımların işi daha çətin olduğundan onlar həm ailəyə, həm də karyeraya vaxt ayıra bilmirdilər. Həm evdar, həm də iş həyatının ikisi bir arada mümkün deyildi. Müasir zamanda isə xüsusi olaraq texnoloji inkişaf qadının ev işləri ilə məşğul olmasını daha da yüngülləşdirib. Artıq bir çox iş məhz texnologiyanın köməyi ilə yerinə yetirilir. Lakin buna baxmayaraq, elə işlər vardır ki, sadəcə olaraq, diqqət tələb edir. Bu da yalnız qadının öhdəsindədir. Bəs karyera? Hal-hazırda bir çox qadın mükəmməl karyerası olsun deyə, çalışır və bunu arzu edir. Statistika göstərir ki, bəzi gənc xanımlar ailə qurmaqdan çox gələcəyi üçün mükəmməl karyera arzulamaqdadırlar və bunun üçün can atırlar.

Bəs mükəmməl karyeraya sahib olan qadın mükəmməl ailəyə sahib ola bilərmi? Əgər qadın zamanının çox hissəsini ailəsinə deyil, iş həyatına həsr edirsə, o zaman onun necə mükəmməl ailəsi ola bilər? Apardığımız araşdırmalar göstərir ki, artıq kişilər üçün karyera bir o qədər də mühüm əhəmiyyət kəsb etmir, nəinki qadınlar üçün. Yəni ölkəmizdə, eləcə də muxtar respublikamızda kişilərlə bərabər, qadınlar üçün də mükəmməl iş şəraiti yaradıldığından qadınlarımız karyera yaratmağa daha çox üstünlük verirlər. Bəs ailə? Bu zaman, yəni yaxşı iş, mövqe qazandığı zaman qadın ailə üçün vacib və mütləq olanları düşünə bilərmi: uşaqların tərbiyəsi, dərs, ev işləri və sair? Sübuta yetirilib ki, mükəmməl ailəyə sahib qadınların mükəmməl karyerası ola bilməz, bu, faktdır. İkisinin də eyni zamanda istədiyimiz səviyyədə mövcudluğu mümkün deyildir, çünki fikir, düşüncə, ideya yalnız bir istiqamətə yönəldiləndə uğurla nəticələnər.

Əksər hallarda gənc qızlarımız arasında karyeraya deyil, ailəyə üstünlük verildiyinin şahidi oluruq. Bu vəziyyət hal-hazırda daha çox üstünlük təşkil edir. Bu da onun göstəricisidir ki, çox gənc qızlarımız hələ yeniyetməlikdən beynində "mən böyüyəndə ailə qurmalı, ana olmalıyam" kimi düşüncələr yaradır. Belə olduqda təhsil önəmini itirir, demək olar ki, ikinci plana keçir. Ailə quran gənc qızlardan bəziləri yaxşı ailə şəraitinə düşür, bəziləri isə... İkincilər maddi və mənəvi çətinliklərlə qarşılaşdıqda təhsilin, karyeranın nə qədər önəmli olduğunu dərk edir, iş imkanlarını dəyərləndirmədikləri üçün peşman olurlar.

Sevindirici haldır ki, Azərbaycan xanımları arasında "ailə müqəddəsdir" prinsipi əsasən özünü qoruyur. Eyni zamanda xanımların böyük əksəriyyəti karyeranın ailə həyatı üçün böyük maneəyə çevrilməməsi mövzusunda da həmfikirdirlər. Lakin bununla belə, apardığımız araşdırmalarda ailə institutumuza zidd bəzi neqativ halların da mövcudluğunu müşahidə etdik. Bunu daha çox xüsusi informasiya kanalları vasitəsilə xaricdən ötürülən və milli-mənəvi dəyərlərimizlə ziddiyyət təşkil edən həyat tərzi təbliğatının nəticəsi kimi də qiymətləndirmək olar. Xanımlarımızın getdikcə daha çox iş həyatının müxtəlif sahələrində yer alması istəyilə əlaqədar ailədə övladların tərbiyəsi baxımından rol bölgüsünün düzgün aparılması vacibdir. Belə ki, bu gün də boşanmanın əsas səbəbləri arasında göstərilən bəzi problemlərin yaşanmaması üçün valideynlər, xüsusilə oğlan övladlarına həyat yoldaşlarına zərurət anında kömək etməyin vacib olduğunu təlqin etməyi unutmamalıdırlar. Aparılan araşdırmaların nəticələrinə görə, iş həyatında uğurlu olan bir qadının ailəsinə vaxt ayırması çətin problem kimi həmin qadını daim düşündürür. Belə bir vaxtda ən yaxşı addım yaxşı bir proqram hazırlamaqdır. Məsələn, həftə içində işin ən az olduğu gün bir az daha tez işdən çıxaraq ailə üzvləri ilə daha çox vaxt keçirmək olar. Ev işləri və uşağa qulluq işini həyat yoldaşı ilə bölüşmək, boş vaxtlarda ailə ilə teatra, kinoya getmək məsləhətdir.

***Bəli, etiraf etmək lazımdır ki, həyatda nələrlə qarşılaşacağımız, başımıza nələr gələcəyindən xəbərsizik. Buna görə də hər birimiz öz gələcəyimiz üçün təhsilə, karyeraya xüsusi əhəmiyyət verməli, gələcəyimizi müstəqil şəkildə qurmalıyıq. Yaxşı karyera isə hər bir qadın üçün maddi və mənəvi təminat, müstəqillik deməkdir. Əgər hər hansı bir qadın işində irəli gedirsə və ailə başçısına, yəni həyat yoldaşına həm də maddi köməklik göstərirsə, bunun nəyi pisdir ki? Əksinə, belə qadınlarla fəxr etməliyik.***

✍ **Sona MİRZƏYEVA**

## Uşaqların həyatını birgə xilas edək

*Dünən Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində könüllü qanvermə aksiyası keçirilib.*

Aksiyada Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları iştirak ediblər. Növbəti qanvermə aksiyasının keçirilməsində əsas məqsəd qana ehtiyacı olan uşaqlara tibbi yardımın keyfiyyətinin artırılması, faktor preparatları ilə müalicənin təşkil edilməsi və digər tədbirlərin görülməsindən ibarət olub.

Əvvəlcə donorlardan arterial təzyiqin yoxlanılması, hepatit, QİÇS və digər yoluxucu xəstəliklərin olub-olmamasının müəyyən edilməsi üçün qan analizləri götürülərək testdən keçirilib. Donorlardan götürülmüş 20,4 litr qanın qrupları müəyyənləşdirilib, birli, ikili və üçlü torbalarda 13,8 litri Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin, 6,6 litri isə Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin qan banklarına təhvil verilib.





***Bu ilin ötən dövrü ərzində Naxçıvan şəhərindəki "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyini 20 minə yaxın insan ziyarət edib. Onlar arasında Azərbaycan Respublikasının vətəndaşları ilə yanaşı, xarici ölkə vətəndaşları da vardır.***

## "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyini 20 minə yaxın insan ziyarət edib

"Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin direktoru, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi Nəzakət Əsədovanın dediyinə görə, muzeyin fondunda rəsmi qeydiyyata alınmış 1125 eksponat mövcuddur. Bunların 300-ə yaxını muzeyi ziyarət edənlərə nümayiş etdirilir. Bu eksponatlar arasında arxiv sənədləri, fotoşəkillər, Naxçıvan xanlarının şəcərəsi, xanlığın xəritəsi ziyarətçilərin böyük marağına səbəb olur.

Muzey direktorunun sözlərinə görə, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 23 oktyabr tarixli Sərəncamı ilə yaradılan "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyində mədəni tədbirlər də həyata keçirilir. Muzeydə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvana səfərlərindən bəhs edən sərgi təşkil olunub. Sərgiyə həmçinin qiymətli fotomənbələr, ensiklopedik materiallar, bülletenlər, yeni tədqiqat kitabları daxil edilərək nümayiş etdirilib. Bundan əlavə, muzeydə Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ilə əlaqədar "Naxçıvanın muxtariyyəti – 90: Naxçıvan muzeylərinin inkişaf tarixi" mövzusunda sərgi təşkil olunub, müxtəlif mövzularda açıq dərslər keçilib.

**Xəbərlər şöbəsi**

## Sığorta-pensiya sisteminin mahiyyəti izah olunur

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun şöbələri tərəfindən məcburi dövlət sosial sığortası sahəsində maarifləndirici tədbirlərin keçirilməsi davam etdirilir. Növbəti maarifləndirici tədbir Naxçıvan Dövlət Sosial Müdafiə Fondunun Ordubad Rayon Şöbəsi tərəfindən rayonun Əylis kəndində keçirilib. Tədbiri Əylis kənd inzibati ərazi dairəsi üzrə nümayəndə İsmayıl Quliyev açaraq tədbirin əhəmiyyətindən danışıb.***

Tədbirdə fondun Ordubad Rayon Şöbəsinin əməkdaşları Feyzulla Əkbərov, Həbib İsmayılov və Hacı Sadiqov çıxış edərək əmək pensiyaları və sığortaolunanların pensiya təminatı hüququ, sığortaolunanların fərdi uçot sistemi, məcburi dövlət sosial sığortasının mahiyyəti və könüllü sosial sığortanın, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsinin əhəmiyyəti ilə bağlı məsələlər barədə torpaq mülkiyyətçilərinə məlumat veriblər.

Qeyd olunub ki, işləyən hər bir vətəndaş fəaliyyət göstərdiyi təşkilatda əməkhaqqının düzgün rəsmiləşdirilməsinə nail olmalı, bunu işəgötürəndən tələb etməlidir. Həmçinin əməkhaqqının düzgün göstərilməsində, sosial sığorta haqlarının düzgün hesablanmasında, vaxtında və tam ödənilməsində maraqlı olmalıdır. Torpaq mülkiyyətçiləri, fiziki şəxslər isə şəxsən özləri sosial sığorta haqlarının düzgün hesablanmasını təmin etməlidirlər. Məcburi dövlət sosial sığorta haqqı sığortaedənlər tərəfindən onlayn ödəmə sistemi vasitəsilə bankda nağd qaydada və internet vasitəsilə plastik kartlardan istifadə etməklə ödənilə bilər.

Tədbirdə könüllü sosial sığortanın əhəmiyyəti barədə də yığıncaq iştirakçılarına məlumat verilib. Bildirilib ki, bütün vətəndaşlar məcburi dövlət sosial sığorta haqları ilə yanaşı, könüllü qaydada da əlavə sığorta haqqı ödəməklə sığorta oluna bilərlər. Bu, həmin vətəndaşların gələcəkdə əmək pensiyalarına əlavələrin hesablanmasına və alacaqları pensiyanın məbləğinin çox olmasına təsir göstərəcəkdir.

Vurğulanıb ki, sığortaolunanın fərdi şəxsi hesabında olan pensiya kapitalı onun bilavasitə pensiyasının məbləğinə təsir göstərir. Bu vəsait nə qədər çox olarsa, sığortaolunanın pensiyasının məbləği də bir o qədər çox olacaqdır.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## İşaxtaran vətəndaşların nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti işaxtaran vətəndaşları Naxçıvan Regional Peşə Tədris Mərkəzində "kabel lehimləyicisi və elektrik montyoru" peşəsi üzrə kurs keçməyə dəvət edir.

Tələbat aşağıdakı kimidir:

*Naxçıvan şəhəri – 6 nəfər*
*Şərur rayonu – 5 nəfər*
*Babək rayonu – 2 nəfər*
*Ordubad rayonu – 2 nəfər*
*Kəngərli rayonu – 1 nəfər*

Tədris müddəti 2 aydır.

Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər 2014-cü il avqustun 25-dək tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim edə bilərlər:

*1. Yaşayış yerindən arayış*
*2. Şəxsiyyət vəsiqəsinin surəti*
*3. Tibbi yoxlama haqqında arayış*

***Əlaqə telefonu: 545-32-33***

## Allah rəhmət eləsin

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin Baş direktoru Yasin Səfərov və agentliyin kollektivi iş yoldaşları Xəlil Məmmədova, qaynı
**RAFİQ ABDULLAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


ŞƏRQ qapısı

Baş redaktorun müavini: SƏYYAR MƏMMƏDOV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 692